# Azerbaycan adları آذه ربایجان آدلاري

باللي، ۱۸۲ـ بالا اوْغلان، ۱۸۳ـ بالاش، ۱۸۴ـ بزه ر ، ۱۸۵ـ بیرجه، ۱۸۶ـ بۇلۇد، ۱۸۷ـ بۆیوک، ۱۸۸ـ بنووشه، ۱۸۹ـ بوْران، ۱۹۰ـ بۇلاق، ۱۹۱ـ بۇلۇت، ۱۹۲ـ بۆیوک، ۱۹۳ـ پوْلاد، ۱۹۴ـ تاي سیز ، ۱۹۵ـ تایماز ، ۱۹۶ـ تام آي، ۱۹۷ـ توْماج،۱۹۸ـ توْخان،۱۹۹ـ تۇراج، ۲۰۰ـ تۇران، ۲۰۱ـ توکه ز ،۲۰۲ـ ترلان، ۲۰۳ـ تئلمان، ۲۰۴ـ تئللهٔ، ۲۰۵ـ ترخان،۲۰۶ـ تۇغرۇل، ۲۰۷ـ ترلان،۲۰۸ـ تئیمۇر ،۲۰۹ـ تئللی، ۲۰۱۰ـ جوْشغۇن،۲۱۱ـ جوْشار ،۲۱۲ـ جئیران،۲۱۳ـ چاپار ،۲۱۴ـ چیچک،۲۱۵ـ چنگیز ،۲۱۶ـ چمناز ،۲۱۷ـ خاتین،۲۱۸ـ خزر ،۲۱۹ـ دالقا ،۲۲۰ـ دیری باش،۲۲۱ـ دیله‌ک ،۲۲۲ـ دیکباش، ۲۲۳ـ دۇمان، ۲۲۴ـ دۇرنا ،۲۲۵ـ دوزگون،۲۲۶ـ ده نیز ،۲۲۷ـ زری ساچ،۲۲۸ـ ساري تئل،۲۲۹ـ ساچلي،۲۳۰ـ سارا ،۲۳۱ـ ساوالان، ۲۳۲ـ ساناز ،۲۳۳ـ سئویل، ۲۳۴ـ ساناز ،۲۳۵ـ سئویل،۲۳۶ـ سئودا ، ۲۳۷ـ سئوه ن، ۲۳۸ـ سایا ، ۲۳۹ـ سئلدا ،۲۴۰ـ سهند ، ۲۴۱ـ سریه، ۲۴۲ـ سوْلماز ، ۲۴۳ـ سوْنا ،۲۴۴ـ سوْن آي،۲۴۵ـ سۇنار ، ۲۴۶ـ سونمز ، سونبول، ۲۴۷ـ سیرداش،۲۴۸ـ شاماما ،۲۴۹ـ شاخار ، ۲۵۰ـ شن ناز ،۲۵۱ـ شئن یاز ، ۲۵۲ـ شاخار ،۲۵۳ـ شامخال،۲۵۴ـ شئنلیک، ۲۵۵ـ شلاله ،۲۵۶ـ شیرین،۲۵۷ـ فیدان،۲۵۸ـ قافلان،۲۵۹ـ قانان، ۲۶۰ـ قالان،۲۶۱ـ قایا ،۲۶۲ـ قارا تئل،۲۶۳ـ قارا گوز ،۲۶۴ـ قاراخان،۲۶۵ـ قوْرخماز ،۲۶۶ـ قوْشقار ،۲۶۷ـ قارداش،۲۶۸ـ قاریاغدي،۲۶۷ـ قندیل،۲۶۸ـ قیلمان،۲۶۹ـ قیوراق،۲۷۰ـ قره نفیل،۲۷۱ـ قیزیل تئل،۲۷۲ـ کوْنول،۲۷۳ـ قوْشار ،۲۷۴ـ گونش،۲۷۵ـ گولشن،۲۷۶ـ گولوش،۲۷۷ـ گول اوز ،۲۷۸ـ گون تاي،۲۷۹ـ گول تکین،۲۸۰ـ گول چئهره ،۲۸۱ـ گول چین،۲۸۲ـ گول یاناق،۲۸۳ـ گولر ،۲۸۴ـ گول گز ،۲۸۵ـ گولنار ،۲۸۶ـ گول آغا ،۲۸۷ـ گوْیچک،۲۸۸ـ گوجلو ،۲۸۹ـ گوْرکم،۲۹۰ـ گلین،۲۹۱ـ گزمیش،۲۹۲ـ گوللو ،۲۹۳ـ گولخار ،۲۹۴ـ گولشن،۲۹۵ـ گولوش،۲۹۶ـ گول آي،۲۹۷ـ گوزه ل،۲۹۸ـ گوندوز ،۲۹۹ـ لاله،۳۰۰ـ لاچین،۳۰۱ـ مارال،۳۰۲ـ میدیا ،۳۰۳ـ مايیس،۳۰۴ـ نازلي،۳۰۵ـ نارگیله،۳۰۶ـ نانه،۳۰۷ـ نارگیله،۳۰۸ـ نۇرآي،۳۰۹ـ بئتی،۳۱۰ـ نرگیز ،۳۱۱ـ نبی ،۳۱۲ـ نهنه قیز ،۳۱۳ـ وۇرغۇن ،۳۱۴ـ یارپیز ،۳۱۵ـ یاشار ،۳۱۶ـ یاغیش،۳۱۷ـ یاشام،۳۱۸ـ ائلچی ،۳۱۹ـ یالچین،۳۲۰ـ یاي قاش،۳۲۱ـ یوْرۇلماز ،۳۲۲ـ یۇرد اوْغلۇ ،۳۲۳ـ یۇردا باغلي،۳۲۴ـ یئل یئریش،۳۲۵ـ یاخشي

# Insan görmədin ! اینسان گؤرمه دین

صابر اوْلسۇن شاد رۇحۇن بئیله دوْوران گؤرمه دین
گوْنده بیر رنگه دوشن ظاهیرده اینسان گؤرمه دین
چوْخ لیجیمسیز ، اوست ـ باش سیز ، ته ر قوْخان
اوز ـ گؤزون ساققال تۇتان مینلرجه حئیوان گؤرمه دین
کۇچه وۆ بازاریده ، مکتب ده مسجیدلرده سن
قارا توْیبایلا گزه ن خوْرتان ـ تو کزبان گؤرمه دین
سینه وۆ زنجیر ووۇران ، پالچیق یاخان ، باشین یاران
ایل بوْیۇ ماتم تۇتان گؤزلری گرایان گؤرمه دین
تئلویزیردا ایرمی دوْرد ساعت یۇیان بئیینلری
بیر سورو مۇلا قۇلاغي توکلو نادان گؤرمه دین
سن دئدین واختیندا یوز ایل کئچدی لاکین قانمادي
باتدي جهلین باتلاغیندا ، جۇمدی هر آن گؤرمه دین
جوْمله سی نادان ، کوْنه ز ، قانمازدي حئیواندان به تر
اوزونو عالیم بیله ن جاهیل وۆ کوْودان گؤرمه دین
ائلیری قۇلدۇرلۇق اوْلدورمکله ، غارت دیر ایشی
یۇرد سوْیۇب ، رۇشوت آلان ، تاراج وۆ تالان گؤرمه دین
چوْخ بلا چکدین ، دئییب ـ یازدین آییلسین میللتین
بیلمه دی سوْز قدرینی ، اوْلدی پریشان گؤرمه دی
اوْلکه یوْخ دۇسداقدي بۇ یئر . وحشی ـ دیوانخانه دیر
هئچ اوْسانمیرسان کی «آیدین» بیرجه اینسان گؤرمه دین؟

# Görməz olaydı گؤرمز اوْلایدي

اي کاشکی گؤزوم سن گؤزه لی گؤرمه ز اوْلایدي
حئیران سنه کونلوم ووۇرۇلۇب سئومه ز اوْلایدي.
اي کاشکی بیلئیدی کی ، وفاسیزسان ازه لده ن
جاندان سنه گؤردوکلرینی گؤرمه ز اوْلایدي
هرگون سحر ـ آخشام ائله ییب کۇیینی مسکن
بیرآن سنی گؤرسون قاپیوي دؤیمه ز اوْلایدي
یاندیرسادا سئودا سنی « آیدین» دیله‌دین کی،
بۇ عشق وۆ محبت بیر عوْمور اوْلمز اوْلایدي
اوْلدۇن بۇ کوْنۇل تانریسي ، تاپدیم سنه لاکین
اي کاشکی گؤزوم سن گؤزه لی گؤرمه ز اوْلایدي

# Azərbaycan Analari

**Iki gűn qabaq Mabtorda( Internet'də) olan səhifələrə baxırdım. millətimizin fədakar xadimlərindən olan Mirze Xəzərin səhifəsini açdiqda Bakı metrosunun girişində olan bu şəkili gördűkde öz gözlərimə inanmadım. Bu həqiqətən mənim vətənimin műstəqil olmuş bölűműndənmidirmi? bəlli, nə qədərdə acı olsa bu mənim műsəqil olmuş vətənimdəndir. Bu realliq məni kədərləndirdi. ev başıma dolandı. öz özűmə soruşdum. göresən bu haman vətən deyildirki, onun ədəbiyatinda anaya ayri bir yer ayırmışdır. hətta başqa avrupa ölkələrinin əksinə vətənə atavətən yox, anavətən adı vermişdir. yoxsa biz toplumumuzda olan öz milli dəyərləri unutmuşuq? yaxud vətənimizdə o qədər əxlaq və moral bozuqluğuna dűşműşűk ki, dűnyada varlığımızı**



**boşlu olan şəxsi də yaddan çıxarmışıq.Göresen ölkəmizdə tarix boyu olan xeyxahlarız harda qalmışdır? göresən ölkəni idarə edenler öz vəzifələrinimi unutmuşlar? məyər bu Hakimiyyətdə olan dövlət məmurları bunu bilmirlər ki, onlara məaş verən bu millətdir. onlarin vəzifəsidə millətin rahatlığına, ölkənin bűtövlűyűnə, gələcəyinə çalışmaqdir. ölkə , ölkənin gəlirləri onlarin deyildir. onlarin ölkə gəlirlərini özlərinin isədikləri kimi xarcama hqları yoxdur. onlar bu millətin hər tək- təkinin həttəa metro pilәkanında oturub dilənən ananın qarşısındada məsuləyyət daşıyırlar. bunu anlamıyanlar tez- gec millətin qəzəbi ilə qarşılaşırlar. və xalq məhkəmələrində cəvabdeh olurlar. Burada Azərbaycanda olan sözdə muxalifətidə unudmamalıyıq. muxalifətin də vəzifələrindən biri bunlari dilə gətirməkdir. çarə yollari göstərməkdir, imkanı daxilidə bunları ortadan qaldirmaqdır. muxalifətin işi sən olma mən olum , sən yemə mən yeyim deyildir. qara Mersides maşınlarinda gəzmək deyildir. ölkəmizdə analarımız bu şəkildə təhqir olub, balası qucağında başqalarına əl açmağa məcbur olursa, bundan təkcə hakimiyyədə olanlar yox, hakimiyyətə gəlmək űçűn yaxa yırtan sözdə muxalifətində haman qədər gűnahı vardır. öz analarına hörmət qoymağı bacarmıyanlar özlərini insan adlandıra bilməzlər. hakimiyyətdə olduğu kimi muxalifətdə onlara yer vardır.**

حوْرمتلی وطنداشلاریمیز
۲۰۰۴ ـ نجي ایلده ن آنادیلی یالنیز آبوْنه
وئره نلره گؤنده ریلیر.

**Hörmətli vətəndaşlar**
**2004.cű ildən Anadili yalnız abunə vərənlərə göndərilir.**

**بیزیم مابتوْر ( اینتئرنئت ) عنوانیمیز :**

www.anadili.com
www.anadili.de
**Anadili@anadili.com**
Anadili@anadili.de

آنادیلی آذه ربایجان میللتی نین آرزۆ وه ایستکلرینی دیله گه تیره ن
هئچ بیر تشکیلاتا ، فیرقه یه (حزبه ) باغلي اوْلمییان غزئته دیر.

عنوانلاریمیز :
Postfach 170355
53029 Bonn- Germany

بانک حئساب نومره میز :
Dresdner Bank Bonn
Konto No. 241461201

غزئته نین صاحیبی وه مسئوْلییت داشییانی دوْقتوْر نوْرالدین غروی دیر.
(1. Euro ) V.i.S.d.Pg Dr. N.GHAREVI